Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# MEDİADA İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

**• 06 - 13 oktyabr 2024-cü il •**

“Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi” işçi qrupunun fəaliyyəti

10.10.2024

qht.az

**"Mediasiya: Beynəlxalq Təcrübələrin Azərbaycan Kontekstində İnkişafı" adlı Konfrans keçiriləcək**

Mediasiya Şurası tərəfindən beynəlxalq mediasiya barışıq sazişlərinin tanınması və icrası sahəsində maarifləndirmə və müzakirələrin təşkili məqsədi ilə "Mediasiya: Beynəlxalq Təcrübələrin Azərbaycan Kontekstində İnkişafı" adlı tədbirin təşkil edilməsi planlaşdırılır.
Tədbirdə Azərbaycan Respublikası Mediasiya Şurası, Türk Dünyası Arabulucular Birliği, Integro Attorneys & Consultants və Yevlax 1 Saylı Mediasiya Təşkilatının təşkilatçılığı ilə keçiriləcək tədbirdə açılış nitqi ilə Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov, Türk Dünyası Mediatorlar Birliyinin İdarə Heyətinin sədri Yakup Erikel, İnteqro Konsaltinq şirkətinin rəhbəri Leyla Şahbazova iştirak edəcək. Həmçinin tədbir boyu Azərbaycan Respublikası Mediasiya Şurası İdarə Heyətinin üzvü Əli Nəbiyev, Türk Dünyası Mediatorlar Birliyində Komissiya rəhbəri Şəbnəm Akipek, Günay Erdoğan Vəkil Bürosunun təsisçisi, mediator, vəkil Ersin Erdoğan çıxış edəcək.
Tədbir zamanı Türkiyə Cümhuriyyətinin Birləşmiş Millətlər Təşkilatının “Mediasiya nəticəsində əldə olunan neynəlxalq barışıq sazişləri haqqında” Konvensiya qoşulmasının təcrübi əhəmiyyəti və rolu, Birləşmiş Millətlər Təşkilatının “Mediasiya nəticəsində əldə olunan beynəlxalq barışıq sazişləri haqqında” Konvensiya barədə, Mediasiya sahəsində xarici ölkələrdə imzalanmış mediasiya sazişlərinin tanınması və icrasının Türkiyə Cümhuriyyəti praktikası kimi mövzular ətrafında müzakirələr aparılacaq.
Qeyd etmək istərdik ki, beynəlxalq mediasiya barışıq sazişlərinin tanınması və icrası ilə bağlı tədbirlərə Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın fəaliyyəti çərçivəsində cari ilin 31 may tarixində təsdiq etdiyi **“Dünya Bankı Qrupunun “Business Ready” hesabatının “Mübahisələrin həlli” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmənin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il Yol Xəritəsi”nin 4.2.1-ci yarımbəndinin icrasının təmin edilməsi məqsədi ilə başlanılıb**.

“Mübahisələrin həlli” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.2024-cü il tarixində təsdiq olunub.

Tapşırığın icrası ilə bağlı Komissiyanın “Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi” işçi qrupu və Mediasiya Şurasının qarşılıqlı əməkdaşlığı çərçivəsində Konvensiyanın imzalanması ilə bağlı dövlətdaxili prosedurlara başlanılması üçün Nazirlər Kabinetinə müraciət edilib.
Məlumat üçün qeyd edək ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın “Mübahisələrin həlli, məhkəmə sistemi və hüququn aliliyi” işçi qrupuna rəhbərliyi Ədliyyə Nazirliyi həyata keçirir.
“Mediasiya üzrə Sinqapur Konvensiyası” və ya “Sinqapur Konvensiyası” kimi tanınan “Mediasiya vasitəsilə əldə olunan beynəlxalq barışıq sazişləri üzrə” BMT Konvensiyası beynəlxalq kommersiya mübahisələri üzrə mediasiya vasitəsilə ilə bağlanmış barışıq sazişlərinin müxtəlif yurisdiksiyalarda tanınmasını və icrasını təşviq etmək və asanlaşdırmaq məqsədi daşıyan beynəlxalq müqavilədir. Konvensiya 20 dekabr 2018-ci il tarixində BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş və imzalanma üçün bütün dövlətlərə açıq elan edilmişdir. Hazırda Konvensiya 56 ölkə tərəfindən imzalanmış və Türkiyə, Gürcüstan, Qazaxıstan və Belarus daxil olmaqla, 11 ölkə tərəfindən ratifikasiya edilib. Sinqapur Konvensiyası qəbul olunana qədər kommersiya mübahisələrində mediasiyadan istifadə ilə bağlı tez-tez istinad edilən problemlərdən biri mediasiya nəticəsində əldə olunmuş barışıq sazişlərinin xarici dövlətlərdə icrası üçün səmərəli hüquqi çərçivənin və vahid rejimin olmaması idi. Konvensiya məhz bu ehtiyaca cavab olaraq hazırlanmış və qəbul edilmiş, beynəlxalq ticarətin asanlaşdırılmasında və kommersiya mübahisələrinin həllinin alternativ və effektiv üsulu kimi mediasiyanın təşviqində mühüm alət kimi xidmət etmək üçün nəzərdə tutulmuşdur. Konvensiya mediasiya nəticəsində bağlanmış barışıq sazişinin xarici dövlətdə sadələşdirilmiş və səmərəli prosedur çərçivəsində tanınması və icra olunmasını təmin edir.

**Mənbə:**

https://qht.az/details/az/36802

### Digər saytlar və portallar

1. https://rezonans.az/37991-mediasiya-beynelxalq-tecrubelerin-azerbaycan-kontekstinde-inkishafi-adli-konfrans-kecirilecek.html
2. https://innews.media/az/news/id-36955

“Mübahisələrin həlli” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 31.05.2024-cü il tarixində təsdiq olunub.

**“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı üzrə” əlaqələndirmə qrupunun iclası**

**09.10.2024**

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023– 2027-ci illər üçün Dövlət Proqramı” üzrə əlaqələndirmə qrupunun 2024-cü il üçün Yol Xəritəsi 19.04.2024-cü il tarixində təsdiq olunub.

report.az

**Naxçıvanda özəl sektorun inkişafına yönəlmiş dəstəkləyici tədbirlər müzakirə olunub**




Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın İqtisadiyyat Nazirliyinin rəhbərlik etdiyi “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı üzrə” əlaqələndirmə qrupunun onlayn formatda iclası keçirilib.
"Report" bu barədə İqtisadiyyat Nazirliyinə istinadən xəbər verir.
Tədbirdə Azərbaycan Prezidentinin Administrasiyasının, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin, İqtisadiyyat, Energetika, Rəqəmsal İnkişaf və Nəqliyyat, Kənd Təsərrüfatı nazirliklərinin, Mərkəzi Bankın, Dövlət Gömrük Komitəsinin, Dövlət Turizm Agentliyinin, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nümayəndələri iştirak ediblər.
İclasda əlaqələndirmə qrupunun 2024-cü il üzrə Yol Xəritəsinə uyğun olaraq Dövlət Proqramının icrası çərçivəsində aidiyyəti dövlət qurumları tərəfindən hazırlanmış və Komissiyanın müvafiq işçi qruplarında özəl sektorla müzakirəyə çıxarılması nəzərdə tutulan müvafiq sənəd layihələri barədə təqdimatlar

edilib. Bildirilib ki, yeni layihələrin Komissiyanın aidiyyəti işçi qruplarının iclaslarında da müzakirəyə çıxarılması, praktik təcrübələrə əsaslanaraq özəl sektor, konsaltinq şirkətləri və biznes assosiasiyaları tərəfindən Komissiyanın rəqəmsal platforması vasitəsilə bu təklif və layihələrə özəl sektorun inkişafına yönəlmiş dəstəkləyici tövsiyələrin təqdim olunması müvafiq Tədbirlər Planının daha effektiv və keyfiyyətli icrasına töhfə verə bilər.

Tədbirdə həmçinin, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” üzrə monitorinq və qiymətləndirmə nəticələri barədə məlumat verilib.

**Mənbə:**

https://report.az/biznes-xeberleri/naxcivanda-ozel-sektorun-inkisafina-yonelmis-destekleyici-tedbirler-muzakire-olunub/

### Digər saytlar və portallar

1. https://www.bayraqdar.info/2024/10/10/elaq%C9%99l%C9%99ndirm%C9%99-qrupunun-iclasi-kecirilib/
2. https://tezadlar.az/index.php/en/agenda/31431
3. https://iqtisadiyyat.az/az/post/naxcivanda-ozel-sektorun-inkisafina-yonelmis-destekleyici-tedbirler-muzakire-olunub-112308
4. https://www.azerbaycan24.com/naxcivanda-ozel-sektorun-inkisafina-yonelmis-destekleyici-tedbirler-muzakire-olunub/
5. https://far.az/8303-naxchivanda-ozel-sektorun-inkishafina-yonelmish-destekleyici-tedbirler-muzakire-olunub.html
6. https://sizinxeber.az/economy/biznes/35084-naxvanda-zl-sektorun-inkiafna-ynlmi-dstklyici-tdbirlr-mzakir-olunub.html
7. https://agah.az/25341/agah-3397/
8. https://azerbaijan-news.az/az/posts/detail/naxcivan-muxtar-respublikasinin-sosial-iqtisadi-inkisafina-dair-2023-2027-ci-iller-ucun-dovlet-proqrami-1686001387
9. https://aibn.nakhchivan.az/content/menu/xeberler/?page=5

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023– 2027-ci illər üçün Dövlət Proqramı” üzrə əlaqələndirmə qrupunun 2024-cü il üçün Yol Xəritəsi 19.04.2024-cü il tarixində təsdiq olunub.

## "Texnologiya və innovasiyalar" işçi qrupunun iclası

**08.10.2024**

"Texnologiya və innovasiyalar" işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 08.04.2024-cü il tarixində təsdiq olunub.

**azertag.com**

**"Qlobal İnnovasiya İndeksi 2024"də texnologiya və innovasiyalarla bağlı göstəricilər təhlil olunub**



Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərlik etdiyi "Texnologiya və innovasiyalar" işçi qrupunun növbəti iclası keçirilib.
Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasda Komissiya Katibliyinin rəhbərliyi, işçi qrupun rəhbəri və üzvləri, özəl sektor iştirakçıları və media nümayəndələri iştirak ediblər.
Sözügedən iclasda "Texnologiya və innovasiyalar" işçi qrupunun cari il ərzində fəaliyyəti, eyni zamanda, 26 sentyabr tarixində dərc edilmiş "2024-cü il üzrə Qlobal İnnovasiya İndeksi"nin (QİI-2024) nəticələri ətraflı şəkildə müzakirə olunub.
Komissiya Katibliyinin rəhbəri Vüsal Şıxəliyev açılış çıxışı edərək ölkənin Qlobal İnnovasiya İndeksindəki göstəricilərinin yaxşılaşdırılmasında işçi qrupun fəaliyyətinin mühüm rol oynadığını qeyd edib. Bu istiqamətdə həm işçi qrup daxilində, həm də digər qrup və altqruplarla əməkdaşlığın və kommunikasiyanın davamlılığının vacibliyini vurğulayıb.
İşçi qrupun rəhbəri, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov bildirib ki, cari il üzrə icra

müddətləri yaxınlaşan və ya bitən tədbirlərin statusları barədə işçi qrupu çərçivəsində kommunikasiya davamlı aparılıb. Bunun nəticəsi olaraq “Qİİ-2023” hesabatında qiymətləndirilməsi mümkün olmayan 6 alt indikator üzrə məlumatlar müəyyən edilib və “Qİİ-2024” hesabatında dərc olunub.
Samir Məmmədov işçi qrupun iclasında dövlət qurumlarının və özəl sektor nümayəndələrinin iştirakının növbəti aylar üzrə hədəflərin müəyyənləşdirilməsinə töhfə verdiyini vurğulayıb.
Daha sonra iclasın gündəliyinə uyğun olaraq, dövlət qurumlarının nümayəndələri tərəfindən 2024-cü ilin 9 ayı ərzində görülmüş işlərin hesabatları və növbəti rüb qarşıya qoyulmuş hədəflər, həmçinin “Qİİ-2024” hesabatının aidiyyəti alt indikatorları müzakirə edilib.
İclasda səsləndirilmiş fikirlər əsasında işçi qrupu tərəfindən müvafiq təkliflər verilib və qərarlar qəbul olunub.
Məlumat üçün qeyd edək ki, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Texnologiya və innovasiyalar” işçi qrupuna rəhbərliyi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir (https://azranking.az/az/working-groups).

“Texnologiya və innovasiyalar” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 08.04.2024-cü il tarixində təsdiq olunub.

**Mənbə:**

https://azertag.az/xeber/qlobal_innovasiya_indeksi_2024de_texnologiya_ve_innovasiyalarla_bagli_gostericiler_tehlil_olunub-3220210

**Digər saytlar və portallar**

1. https://apa.az/ikt/qlobal-innovasiya-indeksi-2024de-texnologiya-ve-innovasiyalarla-bagli-gostericiler-tehlil-olunub-871138
2. https://news.day.az/azerinews/1696527.html
3. https://xeberler.az/new/details/32708.htm
4. https://www.xalqcebhesi.az/news/a/187488.html
5. https://yeniazerbaycan.com/xeberlenti_e109962_az.html
6. https://unikal.az/news/451699
7. https://www.yenimedia.org/az/posts/detail/qlobal-innovasiya-indeksi-2024de-texnologiya-ve-innovasiyalarla-bagli-gostericiler-etrafli-tehlil-olunub-1728438011
8. https://naxcivanxeberleri.com/bloq/qlobal-innovasiya-indeksi-2024de-texnologiya-ve-innovasiyalarla-bagli-gostericiler-tehlil-olunub-54295

9. https://bbn.az/qlobal-innovasiya-indeksi-2024d%c9%99-texnologiya-v%c9%99-innovasiyalarla-bagli-gost%c9%99ricil%c9%99r-%c9%99trafli-t%c9%99hlil-olunub/
10. https://innews.media/az/news/id-36936
11. https://ictinfo.az/qlobal-innovasiya-indeksi-2024d%c9%99-texnologiya-v%c9%99-innovasiyalarla-bagli-gost%c9%99ricil%c9%99r-%c9%99trafli-t%c9%99hlil-olunub/
12. https://sizinxeber.az/ikt/34723-qlobal-innovasiya-indeksi-2024d-texnologiya-v-innovasiyalarla-bal-gstricilr-thlil-olunub.html
13. https://az.shafaqna.com/AZ/192506/qlobal-innovasiya-indeksi-2024d%c9%99-texnologiya-v%c9%99-innovasiyalarla-bagli-gost%c9%99ricil%c9%99r-%c9%99trafli-t%c9%99hlil-olunub/
14. https://ted.az/az/view/news/61195/ldquoqlobal-innovasiya-indeksi-2024rdquode-texnologiya-ve-innovasiyalarla-bagli-gostericiler-tehlil-olunubnbsp
15. https://bizim.media/az/cemiyyet/215216/ldquoqlobal-nnovasiya-ndeksi-2024rdquode-texnologiya-ve-innovasiyalarla-bagli-gostericiler-tehlil-olunub-foto/

"Texnologiya və innovasiyalar" işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 08.04.2024-cü il tarixində təsdiq olunub.

**Ekoloji, sosial və korporativ idarəetmə standartları üzrə altqrupunun təşəbbüsü**

**07.10.2024**

**report.az**

**KOBİA "yaşıl iqtisadiyyat"a və iqlim dəyişikliyi ilə mübarizəyə dair qlobal təşəbbüslə çıxış edib**

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) KOB-ların "yaşıl iqtisadiyyat"da və iqlim dəyişikliyi ilə mübarizə məsələlərində rolunun artırılması üçün qlobal təşəbbüslə çıxış edib.
"Report" xəbər verir ki, bunu agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov Bakıda "KOB-lar üçün imkanlar, mövcud vəziyyət və çağırışlar" mövzusunda keçirilən Azərbaycan Ticarət Forumunda bildirib.
"KOB-ların "yaşıl biznes" proseslərini tətbiq etməsi onların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasında, xarici investisiyaların cəlb edilməsində əhəmiyyətli rola malikdir. Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Ekoloji, sosial və korporativ idarəetmə (ESG) standartları üzrə altqrupu çərçivəsində müxtəlif dövlət və özəl sektor nümayəndələri ilə birgə "yaşıl biznes"in təşviqi üzrə fəaliyyət həyata keçiririk. Qısamüddətli hədəflərimizdən biri həm yerli, həm də beynəlxalq müstəvidə ilk təcrübə olaraq "yaşıl biznes", eləcə də ESG standartlarının hazırlanmasıdır", - deyə o qeyd edib.

**Mənbə:**
https://report.az/biznes-xeberleri/kobia-yasil-iqtisadiyyat-a-ve-iqlim-deyisikliyi-ile-mubarizeye-dair-qlobal-tesebbusle-cixis-edib/

**Digər saytlar və portallar**

1. https://ikisahil.az/post/548015
2. https://baku.ws/social/kobia-yasil-iqtisadiyyat-a-ve-iqlim-deyisikliyi-ile-mubarizeye-dair-qlobal-tesebbusle-cixis-edib
3. https://www.azerbaycan24.com/kobia-yasil-iqtisadiyyat-a-ve-iqlim-deyisikliyi-ile-mubarizeye-dair-qlobal-tesebbusle-cixis-edib/
4. https://sizinxeber.az/economy/biznes/34194-kobia-yal-iqtisadiyyata-v-iqlim-dyiikliyi-il-mbarizy-dair-qlobal-tbbsl-x-edib.html

Ekoloji, sosial və korporativ idarəetmə (ESG) prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2024-cü il üçün Yol Xəritəsi 27.03.2024-cü il tarixində təsdiq olunub.